

# Fəxri Xiyaban

## The Honorary Cemetery

HEYDƏR ƏLİYEV FONDU

HEYDAR ALIYEV FOUNDATION

BAKI - 2007

# Fəxri Xiyaban

## The Honorary Cemetery

Dekorativ sənət ustası, ornamentçi rəssam, xalçaşünas, sənətşünas. Azərbaycan SSR xalq rəssamı (1960), SSRİ Dövlət mükafatı laureatı (1950), sənətşünaslıq namizədi (1950), əməkdar incəsənət xadimi (1955). Azərbaycanın müasir xalça sənəti məktəbinin banisi.

1930-cu ildən "Azərxalça" Birliyinin bədii-texniki rəhbəri, 1945-ci ildən Azərbaycan Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunun dekorativ-tətbiqi sənət şöbəsinin müdiri olmuşdur. Yaratdığı xalçalar ornament elementlərinin uyarlığı, kompozisiya bitkinliyi, zərifliyi və ifadəliliyi, milli koloritin zənginliyi ilə fərqlənir. İnteryer bəzəkləri, kitab tərtibatı, zərgərlik, keramika, ağac, metal və daş üzərində oyma sənəti sahəsində nümunələr yaratmışdır. 1986-cı ildə Londonda əsərlərinin fərdi sərgisi böyük müvəffəqiyyətlə nümayiş etdirilmişdir. Onun yaratdığı "Əcəmi" süjetli xalçası YUNESKO-nun Parisdəki daimi sərgisinin kolleksiyasına daxildir. "Əsrlərin nəğməsi" adlanan digər nadir xalçası "Kalaki" (Böyük Britaniya) şirkətinin xüsusi kolleksiyasında saxlanılır. Əsərləri Sovet İttifaqının bir çox şəhərində, eləcə də Paris, Nyu-York və s. yerlərdə nümayiş etdirilmişdir. 1200-dən artıq Azərbaycan xalça ornament elementinin təhlili verilmiş dördcildlik "Azərbaycan xalçası" əsəri ABŞ-da, Avropa və Şərq ölkələrində böyük maraq doğurmuşdur.

Onun təşəbbüsü ilə 1967-ci ildə Bakıda yaradılan Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi keçmiş Sovet İttifaqında birinci və dünyada ilk belə muzeylərdən idi. Azərbaycan xalça sənətinə dair beynəlxalq simpoziumların keçirilməsi və dünyanın aparıcı mütəxəssislərinin bu işə cəlb edilməsi onun adı ilə bağlıdır.

2 Qırmızı Əmək Bayrağı, Xalqlar dostluğu, "Şərəf nişanı" ordenləri və medallarla təltif olunmuşdur.



***KƏRİMOV LƏTİF HÜSEYN oğlu***
(17.11.1906, Şuşa - 09.09.1991, Bakı)

***LATIF H. KERIMOV***
(17.11.1906, Shusha - 09.09.1991, Baku)

Master of decorative art and ornamental artist and art historian.

Specialist in the study of carpets. People's Artist of the Soviet Socialist Republic of Azerbaijan in 1960, Laureate of the State Prize of the USSR in 1950, art historian candidate in 1950, Honoured Figure in Arts in 1955, founder of the contemporary carpet art school of Azerbaijan.

Since 1930, he was the art-technical manager of the 'Azerkhalcha' Union, and from 1945 was the head of the decorative applied art department at the Architecture and Art Institute of the Academy of Sciences of Azerbaijan. The carpets he made are noted for their harmony of ornamentation, completeness, fineness and expressiveness of composition and richness of national colour. He made works for interior adornment, book design, jewellery, ceramics, engraving on wood, metal and stone. His art was demonstrated at an exhibition of his works held in London in 1986. His 'Ajami' carpet is part of UNESCO's permanent collection in Paris. His other rare carpet named 'The Song of Centuries' is kept in special collection of 'Kalaki' in Great Britain. His works have been demonstrated in several cities of the Soviet Union and in Paris, New York. His four volume work 'Azeri carpets', which includes research of more than 1200 Azeri carpet ornamentations, has excited great interest in the USA, European and Eastern countries.

In 1967 the first Public Museum of Azeri Carpets and Applied Folk Art in the Soviet Union was established in Baku on his initiative. Organizing international symposiums on Azeri carpet art and involving leading specialists in this work was was something he did with great enthusiasm.

He recieved the Order of the Red Banner of Labour twice, the Order of the Friendship of Nations, the Medal of Honour and other medals.